

İlqar FƏHMİ

**BALACA KİŞİLƏR**
(ixtisarla)

Dedilər,  "Cırlaşıb gedib bu millət,
Hamı xırdalaşıb, hamı kiçilib".
Dedilər, "Şücaət bir şüşə şərab,
artıq dibinəcən çoxdan içilib...".

Dedilər, "Zəmanə dəyişib daha,
Vətənçün öldürüb ölmür oğullar.
Daha sinəsini verib qabağa
Düşmənin üstünə gəlmir oğullar".

Dedilər, "Kişilik, hünər, cəsarət
Daha gözə dəymir, keçmişdə qalıb.
"Vətənə canım da qurbandı" demək
Yalnız dildə qalıb, vərdişdə qalıb...".

O zəif deyilən, cılız deyilən,
O xırda uşaqlar əsgərdi bu gün,
Geyinib ruhuna mərdlik libasın,
Düşmənə gücünü göstərdi bu gün...

Əsgər paltarını geyinəndə də
Bilmirdi gülllədən köksü deşilər.
Qəfil böyüdülər, tez böyüdülər
Balaca kişilər, cavan kişilər...

Səngərin küncündə hücum gözləyən
Bu cılız balalar uşaq oldular.
Torpaqdan güc alıb, hücuma qalxıb
Sərt qaya oldular, bir dağ oldular...

On səkkiz, on doqquz, iyirmi yaşda
Arzusu ürəkdə, niyyəti başda...

Başları üstündə uca Allahı,
Ayaqlar dəmirdi, ürəklər polad...
Dikəlib səngərdən, açıb silahı
Yüyürüb qaçanda düşmən üstünə,
Gözlərə heç bir şey görünmür daha,
Yol gedir zəfərlə dolu sabaha...

Güllələr altında, mərmi səsində
Səngərdən dikəlib qalxan saniyə
Əlləri bir dəmir məngənə oldu,
Düşmən boğazından yapışsın deyə.

Səngərdən dikəlib qalxan saniyə,
Ölümün gözünə baxan saniyə
Balaca kişilər yoxa çıxdılar,
Yeri parçalayıb əzəmətiylə
Torpaqdan elə bil divlər qalxdılar.

Dünən sevgilərlə dolmuşdu gözü,
Qəzəbli gözündən bu gün qan sızır.
Dünən qızlar üçün "sms" yazan
Bu gün öz qanıyla "şücaət" yazır...

Dünən kompüterdə avtomat atıb,
Bu gün mərmi uçur başının üstə...
Səngərdən hücuma qalxan saniyə
Əlli yaş da gəlir yaşının üstə...

O başqa "oyun"du, bu başqa oyun,
Orda nə geymisən, burda gəl soyun.

Yox, əlli yaş azdı, yüz yaş, beş yüz yaş
Bircə saniyədə qocalır adam.
Səngərdən qalxanda öz boyundan da
Beş yüz dəfə artıq ucalır adam.

Ucalır, yüksəlir buludlaracan,
Ona güllə çatmır, mərmi yetişmir,
Səngərdən hücuma qalxan saniyə
Uşaqlar dəyişir, vətən dəyişmir...

Balaca kişilər, cavan kişilər,
Dar gündə vətənə həyan kişilər…